Ədalət .- 2024.- 8 noyabr(№43).-S.14.



# YAXŞI Kİ, VAR YAXŞILAR

**_Sona Çərkəz,_**
**_Yazıçı-publisist_**

***An var ömrə bərabər,***
***ömür də var an qədər...***

**Həyatda insanın bəxtinə yazılan yaxşılar, Tanrının lütfü olduğuna hər zaman inananlardanam və bu mənada çox şükürlüyəm, çünki yaşadığım az olmayan ömrümdə seçilmişlərə, sözün tam mənasında qürurlandıran və güvən verən, bötüv, mərd, sevgi dolu xarakterə malik olanlarla qarşılaşır və əbədi olaraq yaxınlaşıram. Bəxtim məni tək bu mənada heç vaxt sarsılmağa, ruhdan düşməyə, təklənməyə aparmayıb, əksinə, mən o yüksək mənəviyyatlı, sonsuz sədaqət sahibi olanlardan güc alıb, yaşamağa davam etmişəm... Dəyərli insanlar ömür uzadır, münasibətləri ilə qarşısındakını həyata bağlayar, ruhlandırar, yaşayıb-yaratmasına səbəb olar...**

Mənim bu kiçik yazımda deməyə çalışdığım odur ki, insan öz düşüncəsi, tərzi, təfəkkürü və dərrakəsi ilə qəlblərə yol sala bilir, orada özünə layiqli məskən tapır. Bu da istedaddır və nə yazıq ki, hər kəsə verilmir. Hansı yolu seçiriksə-seçək, nə ilə məşğul oluruqsa olaq içdən duymağı, hiss etməyi, qarşımızda duranı anlamağı, onun yaşadıqlarını dərk etməyi bacara bilmək hər sahədə elin gözündə ucaldan, onu cəmiyyətdə sevdirən öz peşəsinə olan sevgisi və mütləq İNSANLIĞIDIR... Bu sözün mayasında isə hər birimizin ürəyindəki arzusu, istəyi, xalqa olan sevgisi, düşüncə saflığı və bir də niyyətidir.

Elə bu istəklə, bu niyyətlə də ömrümə yeni iz salanlar silsiləsindən olan bu yazımı yazıram...



Doğru deyiblər ki, dünya yaxşıların çiyinlərində bərqərardır və bir də yaxşılara görə gözəldir, yaşanmalıdır. Amma həm də mənə görə dünya ruhları ruhumuzla, ürəkləri ürəyimizlə səsləşənlərin çiyinlərindədir. Həyatımda rast gəldiyim, çox sevdiyim və həmişəlik doğmalarıma çevrilən, bəlkə də bəzi doğmaları kölgədə qoyan çox insanlar vardır. Bu mənada etibarlı, ləyaqətli, həkim adına şərəf gətirən və həqiqətən Andlarına sadiq qalan, onu şöhrətləndirən həkimlər də çoxdur. Tanıdığım və inandığım həkimlərin sırasına bu günlərdə bir ad da yazıldı - Milli İdman Tibb və Reabilitasiya İnstitutunun həkimi fiziterapevt-reabilitoloq Gülçöhrə xanım Rüstəmova. 2014-cü ildə Cənab prezident İlham Əliyevin açılışını etdiyi bu mərkəz heç yerdə rast gəlmədiyim tibbi avadanlıqlarla təchis olunmaqla bərabər, xəstələrə yüksək xidmət göstərən tibb personalı ilə də çox fərqlənir və insanı valeh edir. Burada nəvəmi müayinə edən həkim Gülçöhrə xanım Rüstəmovanın diqqəti, xəstəni müayinə etmə üsulu, can yandırmağı bir yana, yazdığı müalicənin az müddətdə yüksək təsirindən yazmasam özümü günahkar hesab edərəm. Pəjmürdə ikən Gülçöhrə xanımın bizi məlumatlandırması, nəvəmin səhhəti ilə maraqlanması həqiqətən təqdirə layiq olduğundan bu səmimi ürək sözlərimin yazıya çevrilməsinə yol açdı və öz şeirimdəki cümləni yazımda ilk cümlə olduğuna görə də məmnun oldum ki, o ömrə bərabər anlardan bizə yaşadan Gülçöhrə xanımı nə yaxşı ki, tanıdım.

**Mən hər vaxt düşünürəm ki, gördüyümüz yaxşını və yaxşılığı unutmamalıyıq, ətrafımızla bölüşməliyik ki, biganələr, (hər mənada) insanlara laqeydlik göstərənlər yaxşılardan - xeyirxahlardan dərs ala bilsin, ala bilsə... Və bir də Gülçöhrə xanım, hər zaman əlləriniz şəfalı, həm də ümid yeri olasınız!..**